DÜNYA XƏBƏRLƏRİ

Rusiyanın Kamışevaxaya zərbəsindən ölənlərin sayı 53-ə çatıb

Noyabr 06, 2026



Rusiyanın Kamışevaxaya zərbələri

Rusiyanın noyabrın 2-də Ukraynanın cənub-şərqində yerləşən Zaporojye vilayətində humanitar yardım məntəqəsini bombalaması nəticəsində ölənlərin sayı 53 nəfərə yüksəlib.

Bu barədə noyabrın 6-da vilayət qubernatorunun səlahiyyətlərini icra edən **Mixaylo Semikin** məlumat verib.

M.Semikin "Telegram" sosial şəbəkəsindəki hesabında bildirib ki, Kamışevaxa kəndindəki hadisə yerində axtarış-xilasetmə işləri artıq beşinci gündür davam edir.

+++

Rusiya Kamışevaxaya noyabrın 2-si axşam saatlarında zərbə endirib. Zelenski bildirib ki, ilk hava zərbəsindən sonra təkrar hücum həyata keçirilib və əraziyə daha doqquz bomba atılıb.

Semikinin dediyinə görə, məktəbə və sığınacağa zərbə məhz insanların humanitar yardım aldığı vaxt endirilib.

“FAB-3000 təxminən bir ton yarım partlayıcı maddə daşıyan üç tonluq aviasiya bombasıdır. Bu silah möhkəm beton istehkamları və bunkerləri dağıtmaq üçün istifadə olunur. Birbaşa zərbədən sonra yeraltı mərkəzin beton konstruksiyası çöküb. Həmin anda orada dinc sakinlər olub. Onlar yardım almağa gəlmişdilər", – deyə Semikin vurğulayıb.



+++

Noyabrın 2-də Ukraynanın Zaporojye vilayətinin Kamışevaxa qəsəbəsinə Rusiyanın bomba zərbələrindən azı 26 nəfər həlak olub. Ukrayna rəsmiləri çox sayda insanın yaralandığını da bildirirlər. Dağıntılar altında qalanların olduğu xəbər verilir. Bu barədə məlumatı noyabrın 2-də axşam saatlarında Ukrayna prezidenti **Volodimir Zelenski** paylaşıb.

Bundan əvvəl Ukrayna Dövlət Fövqəladə Hallar Xidməti 24 nəfərin həlak olduğunu bəyan etmişdi. Yaralanan və itkin düşənlərin sayı olduqca çoxdur. Ərazidə axtarış-xilasetmə işləri davam etdirilir.

Yerli hakimiyyət orqanları səhər saatlarında Kamışevaxaya zərbə endirildiyini və bir nəfərin həlak olduğunu açıqlamışdı. Zelenskinin noyabrın 2-də axşam yaydığı məlumata əsasən, ilk zərbənin ardınca təkrar hücum reallaşdırılıb və daha doqquz bomba atılıb. Zelenski bildirib ki, zərbələr humanitar yardım paylanan və insanların sığındığı məktəb binasına endirilib.

"Rusiyalılar Kamışevaxada qalan sakinlərin hər həftə məhz həmin məkanda humanitar yardım aldıqlarını bilməyə bilməzdilər", –Zelenski yazıb. O əlavə edib ki, Oleşkidəki humanitar əməliyyatdan sonra sülhə doğru addımların atılacağını gözləmək olardı, amma Rusiya "tamamilə əks siqnal verir".

Rusiya hərbçiləri zərbələr və çox sayda dinc sakinin həlak olması barədə məlumatları hələlik şərh etməyiblər.

Kamışevaxa cəbhə xəttinin yaxınlığında yerləşir və mütəmadi olaraq atəşə tutulur.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur